AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Təsdiq edirəm:** ______________________
**"Maliyyə və audit"** kafedrasının müdiri
i.e.d., prof.Ə.Ələkbərov

*Tarix: 12 sentyabr 2023*

***Davranış maliyyəsi*** *fənni üzrə işçi tədris proqramı*
(SİLLABUS)

## I.Fənn haqqında məlumat:

| | |
|---|---|
| Fənnin kodu: | *00222* |
| Fənnin növü: | *Seçmə* |
| Tədris ili: | *2022/2023* |
| Fənnin tədris semestri: | *payız* |
| Fakültə (lər): | *Maliyyə və mühasibat*<br>*Biznes və Menecment*<br>*İqtisadiyyat Və idarəetmə* |
| Qrup: | *666,668* |
| Tədris yükü: | *30/30* |
| Kredit sayı: | *7 (yeddi)* |

## II.Müəllim haqqında məlumat

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | *Dos.T.T.Qurbanova* |
| E-mail ünvanı: | *Tunzala_Gurbanova@unec.edu.az* |
| İş telefonu: | *012 492 58-31* |
| Tələbələr üçün qəbul günləri: | *V gün saat* $13^{00}$*-*$18^{00}$ |

## III. Fənnin təsviri:

Maliyyə bazarları, maliyyə qərarları, risk və səhm qiymətləri və gəlirlərinin proqnozlaşdırıla bilməsi maliyyə ədəbiyyatında ən çox araşdırılan və müzakirə olunan mövzulardır. Davranış maliyyəsi fənni qeyd olunan sahələrdə bir çox iqtisadi və maliyyə nəzəriyyələri və modelləri öyrədəcəkdir. İqtisadi və maliyyə nəzəriyyələrinin əksəriyyəti insanların investisiya qərarları qəbul edərkən mövcud məlumatları rasional qiymətləndirməsi fərziyyəsinə əsaslanır. Bu nəzəriyyə və modellərin əhəmiyyətli bir hissəsi investorlara və maliyyə qərarlarına təsir edən psixoloji amilləri nəzərə almır. Bununla belə, insanlara təsir edən psixoloji amillərə əsaslanan davranış maliyyəsində bir çox hallar təcrübi şəkildə sübut edilmişdir ki, fərdlər investisiya qərarları prosesində irrasional davranışlar və təkrar mühakimə səhvləri göstərirlər. Araşdırmalar investor psixologiyasının səhm qiymətlərinə təsir etdiyini göstərdi. Ənənəvi maliyyə nəzəriyyələri bazarların səmərəli, investorların isə rasional olduğunu iddia edir. Davranış maliyyə nəzəriyyələri bazarların səmərəli olmadığını, investorların irrasional ola biləcəyini və investorların psixoloji və emosional amillərdən təsirləndiyini bildirir.

Qeyd olunan fənn maliyyə sahəsinə fərqli bir psixoloji perspektiv gətirəcəkdir

## IV. Fənnin məqsədi və vəzifələri:

Davranış maliyyəsi fənniin məqsədi psixologiya, antropologiya və sosiologiyadan istifadə etməklə maliyyə bazarlarındakı anomaliyaları, bazar səmərəliliyinin pisləşməsini və irrasional davranışları izah etmək.

Davranış maliyyəsi fənninin vəzifəsi bu istiqamətdə əsas anlayışlarını öyrənmək və onu maliyyə bazarlarının mövcud nəzəri çərçivəsi ilə müqayisə etmək.

## V. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

***Bilməlidirlər:***

- ✓ Davranış maliyyəsinin əsaslarını
- ✓ Fərdlərin davranış meyllərini
- ✓ Maliyyə qərarları ona təsir edən amilləri
- ✓ Səmərəli bazarlar fərziyyəsini
- ✓ Kapital aktivlərinin qiymət modelini

***Bacarmalıdırlar*:**

- ✓ İnvestor profillərini müqayisə etmək
- ✓ İnvestor psixologiyasını dərk etmək
- ✓ İstehlakçı inamınını artırılmasını təmin etmək

**VI. Fənnin mühazirə mövzuları**

Fənn 15 mühazirə mövzusundan ibarətdir. Hər bir mövzuya 4 saat olmaqla (2 saat mühazirə və 2 saat seminar-məşğələ ) vaxt ayrılır.

1. *Risk və qeyri-müəyyənlik*
2. *Qeyri- müəyyənlik şəraitində sistemli risklər*
3. *Davranış və ənənəvi maliyyə yanaşmaları*
4. *Faydalılıq nəzəriyyəsi və Bayes Teoremi*
5. *Maliyyə qərarları və ona təsir edən amillər*
6. *Davranış maliyyəsi nəzəriyyələri və onun digər elmlərlə əlaqəsi*
7. *Prospekt nəzəriyyəsi, çərçivələmə və menal uçot*
8. *Fərdlərin koqnitiv davranış təhrifləri*
9. *Fərdlərin emosional davranış təhrifləri*
10. *Davranış maliyyəsi və investisiya proseslərinin əlaqəsi*
11. *İnvestisiya qərarları və səmərəli bazar hipotezi*
12. *Maliyyə bazarlarında anomaliyalar, şayiə və spekulyasiya*
13. *Divident siyasətində davranışlar*
14. *Davranışda investor psixologiyası və həssaslığı*
15. *Davranışda istehlakçı inamı*

**VII. Prerekvizitlər**

yoxdur

**VIII. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin aparılması, kicik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse və yaxud sərbəst işlərin yazılmasıvə test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

**IX. Əsas dərslik və ədəbiyyat**

1.Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020

2. Əvəz Ələkbərov, Tünzalə Qurbanova, Gültəkin Məmmədova, Şəhla Əlicanova “Maliyyə risklərinin idarəedilməsi” Bakı 2023

3.Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov “Davranış maliyyəsi” , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018

4.Bilgehan Tekin “Finans ve davranışsal finans: teorik çerçive ve temel modeller” İstanbul 2022

5. Atilla Köksal “Parasal konularda yapdığımız hatalar” Scala Yayıncılık, istanbul 2021

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1. | Risk və qeyri-müəyyənlik | Maliyyə funksiyası<br>Risklər<br>Qeyri-müəyyənlik<br>Risklərin təsnifatı<br>Sistemli risklər<br>Sistemsiz risklər | Əvəz Ələkbərov, Tünzalə Qurbanova, Gültəkin Məmmədova, Şəhla Əlicanova “Maliyyə risklərinin idarəedilməsi” Bakı 2023<br>I fəsil |
| 2. | Qeyri- müəyyənlik şəraitində sistemli risklər | Sistematik risk mənbələri<br>bazar riski, siyasi risk, inflyasiya riski, faiz dərəcəsi riski və valyuta riski | Əvəz Ələkbərov, Tünzalə Qurbanova, Gültəkin Məmmədova, Şəhla Əlicanova “Maliyyə risklərinin idarəedilməsi” Bakı 2023<br>4-7 fəsillər |
| 3. | Davranış və ənənəvi maliyyə yanaşmaları | Davranış və ənənəvi maliyyə yanaşmalarının ziddiyyəti | Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov |

| | | | |
|---|---|---|---|
| | | Fərdi davranışda ənənəvi maliyyə yanaşması | “Davranış maliyyəsi” , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018 I fəsil |
| 4. | Faydalılıq nəzəriyyəsi və Bayes Teoremi | Faydalılıq nəzəriyyəsi<br>Gözlənilən fayda modeli<br>Faydalılıq nəzəriyyəsinin sadə aksiomları tamlıq, tranzitivlik, müstəqillik və davamlılıq<br>Bayes teoremi<br>Rasional İqtisadi Fərd | Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov “Davranış maliyyəsi” , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018 |
| 5. | Maliyyə qərarları və ona təsir edən amillər | Maliyyə Qərarının Konsepsiyası və əhatə dairəsi<br>Maliyyə qərarlarının növləri<br>İnvestisiya Qərarları<br>Maliyyələşdirmə Qərarları<br>Mənfəətin Bölüşdürülməsi (Dividend) Qərarları<br>Maliyyə qərarlarına təsir edən amillər: daxili və xarici<br>Maliyyə qərarlarında maliyyə savadlılığının rolu | Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020 I fəsil |
| 6. | Davranış maliyyəsi nəzəriyyələri və onun digər elmlərlə əlaqəsi | Davranış Maliyyəsində Elm Sahələri<br>Psixologiya,<br>Sosial Psixologiya<br>Sosiologiya<br>Antropologiya<br>Davranış Maliyyəsinin əsasları<br>Fundamental (əsas) risk (fundamental risk),<br>İrrasional investor riski (noise trader risk)<br>Həyata keçirmə xərcləri( implementation costs)<br>Davranış Maliyyə yanaşmasının dinamikası<br>Davranış Maliyyə Modelləri | Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020 III fəsil |
| 7. | Prospekt nəzəriyyəsi, çərçivələmə və mental uçot | Davranış maliyyəsində freyminq (çərçivələmə) | Atilla Köksal “Parasal konularda |

| | | | |
|---|---|---|---|
| | | Prospekt nəzəriyyəsində irrasional davranış üzrə əsaslar<br>Mental uçot | yapdığımız hatalar" Scala Yayıncılık, istanbul 2021 I fəsil |
| 8. | Fərdlərin koqnitiv davranış təhrifləri | Fərdlərin davranış təhrifləri üzrə ön fikir<br>Davranış təhriflərinin təsnifatı<br>Koqnitiv va emosional təhriflərin fərqi<br>İnamda israr etmə təhrifləri<br>Məlumat emalı təhrifləri | Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov "Davranış maliyyəsi" , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018 II fəsil |
| 9. | Fərdlərin emosional davranış təhrifləri | Zərərdənqaçma təhrifi<br>Həddindən çox özünəəminlik təhrifi<br>Özünənəzarət təhrifi (Self-control bias)<br>İanə təhrifi (Endovment bias)<br>Peşmanolmaqdanqaçma təhrifi (Regret-Aversion bias | Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov "Davranış maliyyəsi" , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018 II fəsil |
| 10. | Davranış maliyyəsi və investisiya proseslərinin əlaqəsi | Davranış maliyyəsi və investisiya prosesləri üzrə ön fikir<br>İnvestorların növlərə görə təsnifləşdirilməsi<br>İnvestorların psixoqrafikası üzrə modellər<br>İnvestorların davranış təsnifatı<br>İnvestorları müxtəlif qruplar üzrə tasnifləşdirmənin çatışmazlıqları | Damət Bağıro, İlkin Aslanov , Fariz Rəhimov "Davranış maliyyəsi" , İqtisad Universiteti Nəşriyyatı, Bakı 2018 |
| 11. | İnvestisiya qərarları və səmərəli bazar hipotezi | Gözlənən fayda nəzəriyyəsi<br>Müasir investisiya nəzəriyyəsi<br>Portfel növləri<br>Portfel formalaşmasında vacib amillər<br>Portfel idarəedilməsi yanaşmaları<br>Səmərəli bazar hipotezi | Murat Kiyilar, Murat Akkaya l"Davranışsal finans" 2 basım İstanbul, 2020 II fəsil |
| 12. | Maliyyə bazarlarında anomaliyalar, şayiə və spekulyasiya | Təqvim anomaliyaları<br>Gün anomaliyaları<br>Aylarıla bağlı anomaliyalar<br>Tətil anomaliyaları<br>Təşkilat anomaliyaları | Murat Kiyilar, Murat Akkaya l"Davranışsal finans" 2 |

| | | | |
|---|---|---|---|
| | | Qiymət anomaliyaları<br>Şayiə<br>Sekulyativ iqlim | basım İstanbul, 2020 V fəsil |
| 13. | Divident siyasətində davranışlar | Dividend səviyyəsi göstəricisi<br>Dividend səviyyəsinin müəyyən edilməsinin idarəetmə kriteriyaları<br>Dividendlərin sabitliyi<br>Səhmlərlə ödənilən dividendlər və səhmlərin bölünməsi<br>Səhmlərin alınması | Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020 |
| 14. | Davranışda investor psixologiyası və həssaslığı | Davranışda investor psixologiyası və həssaslığı: əsas anlayışlar<br>Zərər fobisi üzündən riskə girməmə<br>Yanılma duyğusuna düşməmək meyli<br>Orjinal fərd məntiq modeli qurma<br>Öz özünü nəzarət<br>Yatırımcı həssaslığı | Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020 VIII fəsil |
| 15. | Davranışda istehlakçı inamı | İnam anlayışı<br>İnam tipləri<br>İnam nəzəriyyələri<br>İqtisadi inam faktoru və gözləntilər<br>İstehlakçı davranışları və inamın ölçülməsi | Murat Kiyilar, Murat Akkaya l“Davranışsal finans” 2 basım İstanbul, 2020 IX fəsil |
| **Yekun imtahan:** | | | |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı; 5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir. Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal

- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada 8-ci və 9-cu tədris həftələri ərzində, aralıq qiymətləndirmə isə semestrin sonunda test üsulunda keçirilir

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - “qeyri-kafi” | - F |
| 51-60 bal | - “qənaətbəxş” | - E |
| 61-70 bal | - “kafi” | - D |
| 71-80 bal | - “yaxşı” | - C |
| 81-90 bal | - “çox yaxşı” | - B |
| 91-100 bal | - “əla” | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** **dos.Tünzalə Tofiq qızı Qurbanova**